**AZƏRBAYCAN ELM FONDU**

**Azərbaycan Elm Fondunun**
**"Gənc Alim və Tədqiqatçıların 7-ci**
**qrant müsabiqəsi"nin (AEF-GAT-7-2023-2(44))**
**qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 2-ci mərhələ)**

# ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Qərbi Azərbaycanın mədəni-tarixi resurslarının turizmin inkişafında rolu**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Nəzərova Gülnar Fərrux qızı**
Layihənin nömrəsi: **AEF-GAT-7-2023-2(44)-10/09/2-M-09**
Müqavilənin imzalanma tarixi: **12 fevral 2024-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2024-cü il - 01 sentyabr 2025-ci il**
*Layihənin **II mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | *Layihənin ikinci mərhələsində Qərbi Azərbaycanın mədəni-tarixi resurslarının ümumi təhlili aparılmışdır. Ümumiyyətlə, bölgənin resurslarını iki hissəyə bölmək olar:*<br>➢ *Maddi mədəni-tarixi resursları;*<br>➢ *Qeyri-maddi mədəni-tarixi resursları.*<br>*Maddi mədəni-tarixi resursları. Qərbi Azərbaycanın ərazisində çox sayda daşınan və daşınmaz maddi mədəniyyət nümunələri mövcuddur. Bunları aşağıdakı kimi kateqoriyalara bölmək mümkündür:*<br>• *Pir, ocaq və ziyarətgahlar: Düldül, Seyid Muxtar, Seyid Rəhim, Bel daşı, Ziya Baba, Zeyvə, İyis, Qara Daş, Cidalı, Qırxlar, Seyid Mahmud və s.;*<br>• *Məscidlər: Sərdar, Bicni, Rəcəb paşa, Dəmirbulaq, Hacı Abbası, Təpəbaşı, Loru Qala, Gığı, Ərəfsə, Körpübulaq, Cümə, Ərgəz, Tağlı və s.;*<br>• *Qəbirüstü abidələr: Cəfərabad, Qabaxlı, Ağbulaq, Cücəvəng, Aşağı Qaranlıq, Alban, Ağüdü, Güllübulaq, İrəvan, Qarabulaq, Güllüdüzü, Qarakilsə, Urud və s.;*<br>• *Məbədlər: Sisavəng, Nərədüz, Anabat, Makenis, Teğər, Qıpçaq, Xorvirab, Saçlı Xanım, Göyərçin, Səfiyyə, Vəng və s.;*<br>• *Qalalar: Gərni, Sivəng, Axtala, Mığrı, Keşikçi, Qafan, Loru, Talın, Tovuzqala, Gümrü, Daş qala, Çikdamal, Şəki, Gığı və s.;*<br>• *Karvansaraylar: Culfa, Gürcü, Qarabulaq, Susuz, Hacı Əli, Tahir, Sərrafxana, Sulu, Qarahisar, Əşraf və s.;*<br>• *Alban kilsələri: Qanlı, Kəsəmən, Açağu, Dövrus, Oxdar, Güllübulaq, Gələsən-Görəsən, Çaybasar, Aşağı* |

*kilsə, Ələyəz, Bala Mərzə, Şəhərcik və b. kimi kəndlərdə yerləşən alban məbədləri və s.;*

- *Türbələr: Miryaqub ağa, Kərbalayi Həsənalı Şaloğlu, Təkiyə kəndində müsəlman türbəsi və s.;*
- *Günbəzlər: Hacılılar, Kərbəlayı Yusifli, Molla Əli Bayram oğlu, Kəklik Abbas qızı, Güləm Rəhim qızı Bayramovaya və s. məxsus olan günbəzlər;*
- *Etnoqrafik-arxeoloji abidələr: Uşi kənd, Şəhərcik, Qurumsulu, Kirs və s.;*
- *Qəbirüstü heykəllər: Şidli, Qəbirüstü alban, Urud, Zəngilər və d.-lərinə aid olan heykəllər;*
- *Arxeoloji abidələr: Arçut, Əmirxeyir, Şişqaya;*
- *Körpülər: Dədəli, Cul, Sənain, Qoytul, Xan, Çırpılı, habelə Taxtakörpü və Təkbarmaq kimi çayların üzərində yerləşən daş körpülər;*
- *Daşüstü yazılar: Sətənağac xaç daşları, Şidli daşüstü təsvirlər, Dövrus daşüstü yazılar;*
- *Məqbərələr: Mirdavud, Pircavidan, Seyid Əhməd;*
- *Sərdabələr: Lehvaz, Anabat, Əkərək;*
- *İmarətlər: Pənah və Əli xanlarının imarətləri;*
- *Mədrəsələr: Urud və Zəhmət kəndlərinin mədrəsəsi;*
- *Məhəllələr: İrəvan, Zəhmət kəndində Dərvişlər;*
- *Qayaüstü təsvirlər: Xosrov, Şəki, Soyuqbulaq, Novruz oğlu zağası, Qarakilsə və b.*

*Hər bir abidə Qərbi Azərbaycan mədəni irsinin inci əsəri hesab olunur. Onların arasında arxeoloji, etnoqrafik, o cümlədən böyük həcmli tikililər var. Abidələrin hər bir unikal memarlıq nümunəsi kimi Azərbaycan memarlıq ənənəsinə uyğun olaraq xüsusi üslubda tikilmişdir.*

*Qeyri-maddi mədəni-tarixi resurslar. Qeyri-maddi nümunələri olduqca zəngindir. Layihədə bunları bölgülərə ayıraraq diqqət yetirilmişdir.*

*a) Milli və dini mərasimlər. Qərbi Azərbaycanın hər bir mahalının adət və ənənəsində Azərbaycan mədəni irsinin ünsürlərini özündə ehtiva edir. İlk olaraq, qeyd etmək lazımdır ki, bölgənin müxtəlif milli və dini mərasimləri mövcuddur. Mərasimlər adətən əyləncə xarakterli olmuş, həmçinin ideoloji-mifik bazasına əsasən inam və sınamalara əsaslanmışdır. Onlar təsnifatına görə, mövsümi və məişət olaraq iki əsas hissəyə ayrılmışdır. Belə ki, mərasimlərə bunlar daxildir: Novruz, Xıdır Nəbi, Qurbankəsmə, Ramazan.*

*Novruz bayramında keçirilən el şənliyinə yerli əhali öncədən xüsusilə hazırlaşardı. Bayramdan öncə böyük (40 gün), kiçik (20 gün), üçüncü (boz ay) adlı çillələr təntənə ilə keçirilərdi. Həmçinin, bölgədə "cəmlə" deyilən anlayış var idi, bu folklorşünas alim Məmmədhüseyn Təhmasibin bildirdiyi dörd balaca çillə hesab olunurdu (hər biri 7 gündən ibarət olan və qış ayının sonunda keçirilən mərhələlər hesab olunurdu). İrəvanda kiçik çillənin son gecəsi "cəmlə torpağa düşür" (yer nəfəs almağa başlayır) adlandırılardı və daha sonra cəmlə suya, oda, havaya düşməsi ilə bağlı fikir yarandı. Cəmlə sırf Qərbi Azərbaycandakı Novruz bayramına məxsus olan, Boz ayda icra olunan və ilin son dörd çərşənbəsində verilən addır. Bayram adətlərinə gəldikdə isə, burada da öncədən evlərdə xüsusi təmizlik işləri aparılar və ümumi səliqə-sahman yaradılardı. Son çərşənbə axşamı (İrəvanda İlaxır çərşənbə adlandırılardı) yerli əhali bütün mərhumların məzarlarını ziyarət edər, mollalar yasin oxuyar, habelə əhd edənlər oradakı adamlara şirniyyat paylayar, o günü kənddə ili çıxmamış rəhmətə gedənlərin də evlərinə gedərək başsağlığı verər, ehsan yeyilər, yaxud şərbət içilərdi. Ümumilikdə, ilaxır axşamı "Kiçik bayram" və ya "Baca-baca" adlandırılardı. İlaxır axşamında küçələrdə tonqallar qalanar, uşaqlar isə əvvəlcədən hazırladıqları "lopa" adlanan məşələ od vurar, fırladıb göyə uçurardı, bununla da və səma işıqlanardı. Qızlar niyyət tutub qapı pusar, oğlanlar evlərə dəsmal, şal və ya papaq atar, evlərdə hər şəxsə bayram payı bölünər, habelə valideyn evindən övlad evinə pay göndərilər, yaşlı ata-ana da, həmçinin payla yad edilərdi. Keçmiş zamanlarda il təhvil verilən gün çaydan xırda balıq tutar, ləyənə salıb, ətrafına səməni, şam düzərdilər və onun hərəkətini seyr edərdilər. Balıq çox çapalayanda və ya sudan atılanda il təhvil verilmiş hesab olunardı. Bayram günü isə hər kəs öz qohum-əqrəbalarına pay apararaq bayramlaşmağa gedərdilər. Nişanlı qızlara və təzə gəlinlərə çoxlu hədiyyə və xonçalar gətirərdilər. Novruz bayramı ərəfəsinin adətlərinə daxildir: kəl döyüşdürmək, xoruz döyüşdürmək, qırmızı soğan qabığı ilə yumurta boyamaq, yumurta döyüşdürmək, pəhləvanların güləşi və d. Məlum olduğu*

*kimi, bölgədə keçirilən Novruz mərasimi də etnoregional həyatın bir hissəsi olmuşdur və özündə Azərbaycan bayram ənənələrinin tərkibini ifadə edir.*

*Digər bir mərasim yazın gəlişi ilə əlaqədar olan Xıdır Nəbi bayramıdır. Bu ənənə qış fəslinin bitməsi və yazın qayıdışı zamanı icra olunardı.*

*Qərbi Azərbaycanda Ramazan Məhərrəmlik, Qurbankəsmə və s. kimi dini mərasimlərin keçirilməsinə xüsusi diqqət yetirərdilər. Qurbankəsmə mərasiminin əsas özəlliyi isə icra olduğunu zaman etnosun mühafizə edilməsi və onun milli mənəvi dəyərlərinin qorunmasına inanılması idi. Həmçinin, Qurban bayramı regionun etnoqrafık xüsusiyyətlərinə məxsusdur. Məsələn, Millidərədə Bişmə, Sacarası və Niyaz kimi üç qurbanlıq vacib hesab olunurdu.*

*Qərbi Azərbaycanın toy mərasimlərində bölgələrə əsasən dəyişliklər mövcud idi. Ancaq ümumilikdə, hamısında küçələrdə çadırlar qurular, axşamdan gecə yarısına kimi mərasim davam edərdi. Məclisdə ağsaqqallar olardı. Toyların ümumi adətlərinə bunlar daxildir: qızbəyənmə, elçilik, yaylıq bağlamaq, bacılıq evi, başlıq, kəbin çörəyi, parça biçmə, xınayaxdı, bəy tərifi, şax bəzənməsi və s. Bundan əlavə, göbəkkəsdi və deyikli kimi uşaq vaxtı qız uşağının kiminsə oğluna ad eləmək adətləri də var idi. Bu adət əsasən Zəngibasar mahalında daha çox təsadüf edilirdi.*

*Yas mərasimlərinin adətlərinə isə islam dininin şiə məzhəbinə uyğun olan yas mərasimi, ehsan verilməsi, ağı deyilməsi və s. kimi proseslərin keçirilməsi daxil idi. Onu da qeyd etmək lazımdır ki, adətən belə yerlərdə kasıb insanlar yuxa çörəyinə bükülmüş və balda bişirilmiş xəmir halva verər, digərlərinə isə çay və ya qəhvə paylayardılar.*

*Bunlardan əlavə, oğlan uşaqlarının müsəlman olması ilə bağlı sünnət toyu da keçirilərdi.*

*b) Musiqi. Musiqi sənəti hələ keçmişdən Qərbi Azərbaycan bölgəsində çox məşhur idi. Habelə saraylarda səsli-küylü şənlik məclisləri təşkil edilər və orada musiqiçilər rəqqasələri ifaları ilə müşayiət edərdilər. Ümumilikdə, regionda türk, kürd, asuri kimi müxtəlif etnik qruplar birgəlikdə yaşamış və bir-birinin mədəni təfəkkürlərinə təsir etmişdir. Həmçinin musiqi sənətində aşıq sənəti Şərq türk musiqisinə əsasən inkişaf etmişdir. Musiqi sənətində dahil, tombək, duzle, saz, qopuz, qoşanağara, nərməney, qaval, kamança, zurna, şəmşal, bağlama, ney, nağara, neyləbek, tar, dəf kimi alətlərlə məclislər müşayiət edilirdi. Bundan başqa, şənliklərdə türk musiqisinin digər nümunələri də səsləndilirdi: mahnı, təranə, laylay və s. Bölgənin musiqi sahəsinin əsas istiqamətləri bunlar olmuşdur:*

*1) Xanəndə və sazəndə ifaçılığı sənəti. Əsas nümayəndələri Ərdəbilli Səttar, İrəvanlı Əli Əsgər, Cümşüd olmuşdur;*

*2) Aşıq sənəti. Əsas nümayəndələrinə daxildir: Aşıq Ələsgər, Aşıq Paşa, Qul Mustafa, Aşıq Cəlil, Aşıq Bəhmən, Aşıq Əsəd, Dəllək Xələf, Şair Rzaqulu, Aşıq Qulu, Şair Təhməz, Aşıq Bəhmən, Aşıq Mirzalı, Aşıq Abbas, Aşıq Əli, Ozan Heydər, Aşıq Əziz, Aşıq İsa, Miskin Abdal, Aşıq Kərim Paşayev, Aşıq Qiyas, Ozan İbrahim, Aşıq İsbi, Ağ Aşıq, Aşıq İmran Xəlilov və başqalarının adlarını çəkmək olar.*

*Aşıq havalarına bunlar daxildir: Baş Sarıtel, Göyeçəgülü, Yanıq Kərəmi, Kəvəri, Aşıq Alı, Aşıq Arazbarısı, Təcnis, Sultanı, İrəvan gözəlləməsi, Heydəri, İncəgülü, Qayrarma, Şahsevəni, Yurs yeri, Göyçə gözəlləməsi, Koroğlu, Ruhani, Naxçıvan, Qaraçı, İrəvan Çuxuru, Mina Gəraylı, Laçını, Köhnə Göyçə Dastanı, Göyçə qaragözü, Çobanbayatı, İrəvan gəraylısı və s. Bununla yanaşı, folklor nümunəsinin əsas dastanlarından olan "Yetim Aydın'', "Koroğlu", "Əsli-Kərəm", "Ərəb qızı", "Aşıq Qərib", "Şah İsmayıl", "Abbas-Gülgəz", "Xurşud və Mehri", "Tutuquşu", "Şahmar Əli" və s. adlı dastanlar Qərbi Azərbaycanda çox sevilirdi.*

*3) Xalq-məişət musiqisi. Qərbi Azərbaycan üçün önəmli olan başlıca folklor nümunələri bunlardır: atalar söz, inanc, təmsilçik, zərbi-məsəl, tapmaca, and, əfsanə, rəvayət, holavar, xırman nəğməsi, deyişmə, haxışta, ağı, bayatı, layla, bəhs və s. Xalq mahnılarına misal olaraq, "Nadana məni", "Duma", "Buğdacan", "İrəvanda xal qalmadı", "Quşum", "Ciğey-cığey", "Sara", "Bəlkə yar gələ", "Almanı dərən", "Sabah oldu" və d. göstərmək olar. Rəqs sənətlərindən "Yallı" daha çox kişilər tərəfindən, "Güvəng" isə qadınlar tərəfindən icra edilirdi. Rəqslərə daxildir: "İrəvan", "Köçəri", "Bətulla", "Tənzərə", "Üç ayaq", "Tello", "İrəvan guşəsi", "İnnabı"*

*"Mirzəyi", "Qazı-qazı", "Tərəkəmə", "Onluq", "Bağdagül", və b. Zurnaçılar dəstəsi, həmçinin xalq-məişət musiqi sənətinin əsas hissəsi olmuşdur ki, onlar el-el gəzib şənlik və bayramlarda ifalarını təqdim edərdilər. Müharibə zamanı isə ordunun önündə gedər və əsgərlərin döyüş ruhunu yüksəldərdilər. Zorxana isə xan sarayı və xalq arasında geniş yayılmış idman xarakterli oyun növü idi. Güləşçilərin güclərini göstərdiyini bu yarış-tamaşada onları qara zurna, qoşa nağara, tulum və təbil kimi musiqi alətləri müşayiət edərdi.*

*4) Mehtər musiqisi. Bu növ musiqiyə "türk orkestri" də deyilirdi və adətən hərbi funksiya daşıyırdı. Musiqi zamanı zuma, şeypur, bom, tuluq zuması, dəf, davul, qaval, kiçik və böyük türk nağaraları kimi alətlərdən istifadə edilərdi.*

*5) Quranın oxunması. Məlum olduğu ki, Qərbi Azərbaycan müsəlman bölgədir və burada quranın gözəl səslə oxunması vacib məsələ idi. Buna nəzərən, mədrəsələrdə dərslər keçiriləri və xüsusi avazla Quranın oxunması üzrə təlimlər verilərdi. Daha sonra tələbələr məscidlərdə azan, dini bayram və mərasimlərdə isə ilahi, növhə, mərsiyə oxuyardular.*

*c) Teatr. Bu sahənin irəliləməsində mövsümi mərasim, el şənliyi, meydan tamaşası, dini ayin, şəbih tamaşası, xalq oyunu kimi sahələrin rolu böyük olmuşdur. XIX əsrin ikinci yarısından isə artıq İrəvanda teatr tamaşalarının səhnəyə qoyulması prosesi başlanıldı. Məşədi İsmayılın "İrəvan xanı və Novruz bayramı" məsxərəsi, Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah", "Hacı Qara", "Lənkəran xanının vəziri", Soltanməcid Qənizadənin "Dursunəli və ballıbadı", "Xorxor", "Axşam səbri xeyir olar", Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır", Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", "Əqli məhəbbət", "Ev tərbiyəsinin bir şəkli", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" və s. əsərləri səhnəyə qoyulmuş tamaşalardan idi.*

*ç) Mətbəx. Qərbi Azərbaycanda çəltik, üzüm, armud, şaftalı, mot-motu, alma, moruq, heyva, gavalı, albalı, gilas, qoz, əncir, badam, nar, tut, ərik, alça, iydə, zoğal, ziric, qarağat və s. kimi meyvələr, qarpız, yemiş, balqabaq kimi bostan bitkiləri, kələm, kartof, qırmızı kələm, yerkökü, lobya, çuğundur və d. tərəvəzlər yetişdirildi. Bölgə üzümün, almanın, armudun, gavalının, qarpızın, yemişin müxtəlif sortları ilə zəngin idi. Belə ki, ərazidə həmin meyvə və tərəvəzlərdən müxtəlif cür mürəbbə, sirkə, tutma, qurudulmuş meyvə və xörəklər hazırlanmışdır.*

*Yerli əhali mal-qara saxlayır və onların ətindən, süddən faydalanardılar. Habelə Göyçə gölünün iki əsas balıq növü olan qızıl alabalıq və sazan balığı balıqçılıq sahəsi üçün xüsusi əhəmiyyət kəsb etmişdir. Gölün balıqçılıq sahəsində zəngliyi həmişə turistlərin diqqətini cəlb etmişdir.*

*Ət və süd məhsulları, undan hazırlanan məmulatlar, çörəklər, xörəklər, müxtəlif mədəni və yabanı bitkilər əhalinin mətbəxinin əsasını təşkil edirdi. Mətbəx mədəniyyətinə əsas nümunələr kimi bunları göstərmək olar: yarpaq xəngəli, kələcoş, qaşxəngəli (qaşıqxəngəli), körəməz, bozbaş, lülə kabab, un xəşili, süd aşı, qaysava, cılfır, yarma xəşili, qovurma, əriştə aşı, ağsoğlaq, əriştə isitisi, halva, umac, quymaq, qovut, hörrə, soyutma balığı, bulama kimi yeməklər, cad çörəyi, qatlama, əydək, fəsəli, pişi, kətə kimi şirniyyatlar və s.*

*İçkilər üçün kəklikotu, mayçiçəyi, tüklüot, itburnu, yemişən, zirnic yarpağından çay dəmləmək üçün geniş istifadə edilirdi. Bundan başqa, içkilərə şərbət-şəkərli su, salxım şirəsi və başqa meyvə şirələrini də aid etmək olar.*

*d) Xalq sənəti və təsviri incəsənət. Qərbi Azərbaycanda yerli sənətkarlığın müxtəlif növləri, dulusçuluq, boyaqçılıq, toxuculuq, zərgərlik və s. inkişaf etmişdir. Monumental rəngkarlıqda divar boyakarlığı, miniatür boyakarlıq xüsusi diqqət cəlb edir ki, onlara nümunə olaraq, "Şahnamə", "Leyli və Məcnun" və s. daxildir. Təsviri sənətin əsas simalarına Mirzə Qədim İrəvanini göstərmək olar və onun əsərlərinə "Xəncərli kişi", "Dərviş", "Rəqqasə", "Molla", "Fətəli şah", "Abbas Mirzə", "Hüseynqulu xan", "Rüstəm Zal", "Gənc oğlanm portreti", "Əyləşmiş gənc qadın portreti" və d. aiddir. Təsviri sənət sahəsində digər yaradıcı şəxslərə Zeynəb Göyçəli (ilk karikatura çəkən qadın rəssam), Səyavuş Həsənov Həsən oğlu, Abbasəli Ələkbərov Ələkbər oğlu, İbrahim Abbasov Qurban oğlu, Yaqub Alıyev Həsən oğlunu göstərmək olar.*

*Teatr-dekorasiya sənətində Cabbar Quliyev, Məmməd Qasımov, Fuad Qafarov, Tahir Tahirov kimi şəxsiyyətlərin yaradıcı fəaliyyətini göstərə bilərik. Cabbar Quliyev "Solğun çiçəklər", "Yağışdan çıxdıq, yağmura düşdük", "Molla İbrahimxəlil kimyagər", Məmməd Qasımov "Arvadımın əri", Fuad Qafarov "Arşın mal alan",*

*Tahir Tahirov "Məni qınamayın" kimi tamaşalara bədii tərtibat vermişdilər.*
*Ümumiyyətlə, bölgədə sənətkarlıq sahəsində dəmirçilik, dəlləklik, hallaclıq (atıcılıq), dərzilik, bənna, keçəci, çilingər, elektrik, qaynaqçı, suvaqçı, dəyirmançı, dülgər, rəngsaz və s. kimi sahələr inkişaf etmişdir. Sənət sahələrinin əsas nümayəndələrinə Yəhya Heydər oğlu, Əsgər Alı oğlu, Atıcı Əsgər, Keçəl Əkbər, Məşədi Ələs, İsmayıl Kərbəlayi Kərim, Hüseyn Əsgər oğlu, Həsən Şaban oğlu, İman Əli oğlu, Əkbər Alı oğlu, Sabir Xaliq oğlu və s. daxildir.*
*Xalçaçılıq, keçəçilik sənətkarlıqda xüsusi yer tutmuşdur. Xalçaçılıq sahəsi kənd qadınlarının məşğuliyyətləri arasında xüsusi yer tutmuşdur ki, onlar yundan yorğan, döşək, mütəkkə hazırlayırdılar. Xovlu (xalça, xalı, gəvə və s.) və xovsuz xalçalar (palaz, kilim, cecim və s.) toxunardı. Xalçalığın inkişafı üçün yun əyirmə, iplərin boyanması kimi sahələr üzrə də xüsusi çalışmalar aparardılar. İplərin boyanması üçün müxtəlif bitkilərdən hazırlanan məhluldan istifadə edirdilər: yovşan və zirincin qısa budaqları, təzəcə yetişən qozun yaşıl qabığı, palıd və söyüd ağacı və s. Xalçaçılıqda qırmızı, tünd sarı, yaşıl, mavi kimi canlı rənglərdən geniş istifadə olunurdu. Əfsanəvi epik heyvanlar, simurq quşu, dəvə karvanı kimi motivlərdən, flora və faunanı əks etdirən naxış kompozisiyalarından, müxtəlif süjetlərdən və ornamentlərdən geniş istifadə edilmişdir. Xalça adlarına misal olaraq, yaza bilərik: Çiyinni göl, Ala göl, Sini, Güzgülü göl, Xalı gölü və s.*
*Digər tərəfdən, Qərbi Azərbaycanda geyim mədəniyyətinə xüsusi diqqət yetirildi. Geyimlər adətən baş, çiyin, bel və ayaqdan ibarət olurdu. Zəngin təbəqə insanları mahuddan, kasıblar isə yun parçadan paltarlar geyinərdilər. Adətən qadınlar paltar toxuyardı. Kişi geyiminə papaq, köynək, çuxa, arxalıq, yapıncı, kəpənək, şalvar, dolaq, patava və s., qadın geyiminə isə dingə, çalma, örpək, sərəndaz, kəlağayı, qıdanı, küləcə, qəzmə, şərid, içlik və s. kimi hissələr daxil idi. Geyimlərdə bəzək əşyalarına misal olaraq, topuğa taxılan xal-xal, müxtəlif formalı üzüklər (məsələn, ayrəmçə adlı üzük), bilərziklər, sırğalar, kəmərlər (məsələn, qabırğa kəmər, gül kəmər, saçaq kəmər) və s. göstərmək olar.*

**2** Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli)

*Layihənin II mərhələsinin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi təqribən 16 % bərabərdir.*

**3** Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi

1. *Qərbi Azərbaycan bölgəsinin mədəni-tarixi resurslarına ümumi baxış keçirilmişdir. Resursların əsas tərkib hissələri – maddi və qeyri-maddi mədəni-tarixi resurs olaraq təqdim edilmişdir;*
2. *Maddi və qeyri-maddi resursların hər biri ayrı-ayrılıqda kateqoriyalara bölərək sıralanmış və bölgülərin ümumi əhəmiyyəti barədə məlumat verilmişdir;*
3. *Hər bir resursun Qərbi Azərbaycan mədəniyyətində önəmini ifadə edərək mədəni təhlilləri aparılmışdır;*
4. *Həmçinin, resursların Azərbaycan mədəni irsindəki oxşarlıqlarını ifadə edən əsas ünsürlər müəyyən edilmişdir.*

**4** Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar

*Layihənin ikinci mərhələsinin yerinə yetirilməsi zamanı elmi ədəbiyyatların əsasında ərazinin tarixi-mədəni resursların ümumi təhlili verilmiş, kateqoriya şəkildə müqayisəli-həlli, konkretləşdirmə, ümumiləşdirmə, sistemləşdirmə kimi üsullardan, mənbə mənbələrdən əldə edilmiş məlumatlara nəzərən elmi-statistik və sosio-mədəni yanaşmalarından istifadə edilmişdir.*

**5** Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)*

*Dərc olunmuş məqalələr:*

| | |
|---|---|
| | 1. *G.Nazarova. Historical and geographical review of Western Azerbaijan. Norwegian Journal of development of the International Science, №133/2024, Oslo, Norway. p.67-70, DOI: https://doi.org/10.5281/zenodo.11390775. ISSN 3453-9875.* https://nor-ijournal.com/2024/05/27/njd-133/. *Məqalənin çap olunması ilə yanaşı, sertifikat da əldə edilmişdir.*<br>2. *G.Nazarova. The Analysis of Cultural-Historical Resources of Goycha. International Journal of Research and Innovation in Social Science (IJRISS), Volume VIII Issue VII July 2024, İndian, p.392-396, DOI: https://dx.doi.org/10.47772/IJRISS.2024.807033. ISSN No. 2454-6186. https://rsisinternational.org/journals/ijriss/articles/the-analysis-of-cultural-historical-resources-of-goycha/. Məqalənin çap olunması ilə yanaşı, sertifikat da əldə edilmişdir.* |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *Layihədə Qərbi Azərbaycan bölgəsinin mədəni-tarixi resurslarına ümumi nəzər salınaraq tədqiq edilmişdir. Bölgülərə əsasən aparılan araşdırma onu göstərir ki, regionun olduqca zəngin mədəni-tarixi keçmişi mövcud olmuş və onun əsərlərində Azərbaycan kulturoloji təfəkkürününüz izləri vardır. Buna əsasən, ərazinin mədəni resurslarının elmi cəhətdən daha geniş şəkildə tədqiq edilməsinin regionun əhatəli şəkildə öyrənilməsində önəmli bir proses olacağınızı düşünürük.* |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *Olmayıb* |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *Olmayıb* |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *Olmayıb* |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *Olmayıb* |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *Yoxdur* |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *Olmayıb* |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *Olmayıb* |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *Yoxdur* |
| **15** | Sərgilərdə iştirak |
| | *Olmayıb* |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *Olmayıb* |

| | |
|---|---|
| | |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *Yoxdur* |

**Layihə rəhbərinin imzası ___________________ Nəzərova Gülnar Fərrux qızı**

**Tarix ____________________**

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.